DOI: https://www.doi.org/10.36719/2663-4619/65/147-150

**Nəzrin Elmar qızı Şahbazlı**
Bakı Dövlət Universiteti
magistrant
nazrinshahbazli@mail.ru

# QADAĞAN EDİLƏN DOPİNQ MADDƏLƏRİ VƏ ÜSULLARI, ONLARIN ANLAYISI. DOPİNQƏ NƏZARƏTİN APARILMA QAYDASI

***Açar sözlər:*** *dopinq maddələri, idman, zərərli vasitələr, dürüst oyun prinsipi, sağlamlıq, dopinq nəzarəti, dopinq üsulları*

## Prohibited doping substances and methods, their definition. Doping control procedure

**Summary**

Doping by humans, both in competitions and on a daily basis, remains a major health problem in modern times. There are many growing body of evidences on the negative health effects of using doping. Doping-is the use of substances that will artificially increase their performance and harm the physical and psychological health of the athlete during a race or in preparation for a game. Worldwide doping controls are carried out in accordance with the Code and the International Standard for Testing (IST). Athletes who compete at the international and national level may be tested anytime, anywhere. Specially trained and accredited doping control personnel carry out all tests. The doping control procedure is clearly defined for all anti-doping organizations in the World Anti-Doping Agency (WADA) International Standard for Testing and Investigations (ISTI).

***Key words:*** *doping substances, sports, harmful substance, fairplay, health, control of doping, methods of doping*

## Giriş

Qeyri-təbii və süni şəkildə dopinq maddələrinin köməyi ilə əldə edilən idman performansı idmançını müvəffəqiyyətə apararkən, onu əxlaqlı, mədəni və fəzilətli olmaqdan uzaqlaşdırır, yaxşı keyfiyyətlərinin itirilməsinə və idman fəaliyyətinin get-gedə məhvinə zəmin hazırlamaqla yanaşı, yarışda iştirak edən digər idmançıların hüquqlarının pozulmasına gətirib çıxarır. Rəqabətin olduğu bütün yarışlarda, beynəlxalq anlayışı əhatə edən fairplay" konsepsiyası rəqiblərə, komanda yoldaşlarına, hakimlərə, rəsmi şəxslərə və azarkeşlərə hörmət və oyunun qaydalarına zidd hərəkət etməmək prinsipini daşıyır. İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizənin əsas prinsiplərindən biri kimi də məhz dürüst oyun prinsipi (fairplay) göstərilmişdir. Dopinq maddələrindən isifadə edilməsi dürüst oyun prinsipini- fairplay" konsepsiyasına ciddi zərər vurur. Bununla bağlı, FİFA-nın Futbol üzrə Fair Play (Ədalətli oyun) Kodeksini göstərə bilərik. Bu kodeks dürüst oyun prinsiplərinə əsaslanır, hər zaman müdafiə etdiyi və kənardan olan müxtəlif təsir və mümkün təzyiqlərə baxmayaraq, gələcəkdə də uğrunda mübarizə aparacağı idman yönümlü, əxlaqi və etik prinsipləri əhatə edir.

## an edilən dopinq maddələri və üsulları

Dopinq idmançının yarış zamanı fiziki və zehni performansını artırmaq üçün Ümumdünya Antidopinq Məcəlləsində qeyd edilmiş antidopinq qaydalarının bir və ya bir neçəsinin pozulması və "Beynəlxalq Olimpiya Komitəsi" (BOK) tərəfindən qadağan edilmiş maddələrin və ya üsulların şüurlu və ya şüursuz istifadəsi olaraq təyin edilir.

Dopinq həm idman ədalətinə ziddir, çünki həm haqsız rəqabət üçün zəmin hazırlayır, həm də idmançının sağlamlığını qısa və uzun müddətə pozur, hətta ölüm riskinə gətirib çıxarır. Bu səbəblərdən dopinq WADA, Beynəlxalq Olimpiya Komitəsi, FIFA, UEFA, FIBA və IAAF kimi beynəlxalq idman təşkilatları və Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) tərəfindən qadağan edilmişdir (1).

Demək olar ki, bütün dopinq maddələri bədəndə qısa və ya uzun müddətli yan təsirlərə səbəb olur. Kişilərdə bəzi hormonları artırmaq üçün istifadə olunan maddələrin infarkt, xoşxassəli və bədxassəli şişlərin əmələ gəlməsinə, qaraciyər funksiyasının pozulmasına və sonsuzluğa səbəb olduğu məlum məsələdir.

Ümumdünya Antidopinq Agentliyi (WADA) tərəfindən qadağan edilmiş dopinq maddələri və üsulları aşağıdakı 3 qrup şəklində göstərilmişdir (2):

1. Hər zaman qadağan edilmiş dopinq maddələri və üsulları
2. Yalnız yarış müddətində qadağan edilmiş dopinq maddələri və üsulları
3. Bəzi idman növlərində qadağan edilmiş dopinq maddələri və üsulları

Hər zaman qadağan edilmiş dopinq maddələri və üsulları 6 qrupa bölünür:

1. Təsdiq olunmamış maddələr

2. Anabolik agentlər (Bu maddələrin bir qismi məhdudiyyət olmadan, məsələn müalicə zamanı istifadə olunan dərman vasitələrinin tərkibində ola bilər).

3. Peptid hormonları, böyümə faktorları, onlara oxşar maddələr və mimetiklər (Bu maddələrin də bir qismi həmçinin məhdudiyyət olmadan, məsələn anemiya və ya idmançının müalicəsi üçün istifadə olunan dərman vasitələrinin tərkibində ola bilər).

4. Beta – 2 aqonistlər (Bəzi maddələr isə məsələn astma və digər tənəffüs pozğunluqlarının müalicəsi üçün istifadə olunan dərman vasitələrinin tərkibində ola bilər).

5. Hormon və metabolik modulyatorlar (Lakin, bəzi qadın xəstəliklərinin müalicəsi üçün məhdudiyyət olmadan, məsələn süd vəzi xərçəngi, diabetlər, sonsuzluq kimi xəstəliklərin müalicəsi üçün istifadə olunan dərman vasitələrinin tərkibində ola bilər).

6. Diuretiklər və gizlədici agentlər (Bu maddələrin bir qismi məhdudiyyət olmadan, məsələn ürək çatışmazlığı, hipertoniya müalicəsi üçün istifadə olunan dərman vasitələrinin tərkibində ola bilər).

Yalnız yarış müddətində qadağan edilmiş dopinq maddələri və üsulları isə daha çox asılılıq yaradan maddələrdir. Bu qrupa kokain, diamorfin (eroin) və tetrahidrokanabinol maddələri daxil edilmişdir. Əgər yarış müddətində bu qruplara daxil olan, asılılıq yaradan maddələrdən istifadə halı təsdiq edilərsə sanksiya müddəti 3 ay ola bilər:

1-Bu maddələrdən istifadə yarışdan kənar müddətə təsadüf edilərsə

2-İdman göstəricilərinə təsir göstərmədiyi müəyyən edilərsə.

Əgər idmançıya bu maddələrdən istifadə səbəbli sanksiyalar tətbiq edilibsə, o, könüllü olaraq asılılıq yaradan maddələrdən müalicə və reabilitasiya üzrə proqrama qoşularsa və bu proqram tərəfindən təyin edilmiş müalicəni qənaətbəxş şəkildə başa çatdırarsa sanksiya müddəti bir ayadək azaldıla bilər.

3-cü qrup bəzi idman növlərində qadağan edilmiş maddələr və üsullarına isə Beta-blokatorlar daxildir.1 yanvar 2021-ci il Antidopinq Məcəlləsinə edilən dəyişiklikdə yeni nebivolol nümunə kimi siyahıya əlavə edilib.

Bu maddələrdən və üsullardan istifadə edən bəzi idmançıların idman fəaliyyəti zamanı boyunca və ya idman fəaliyyətini dayandırdıqdan sonra bu maddələrin istifadəsi nəticəsində yaranan xəstəliklər səbəbiylə ömür boyu əziyyət çəkdiyi, hətta öldüyü dəfələrlə radio, televizya və qazetlərdə, habelə sosial şəbəkələrdə bildirilmişdir.

Beynəlxalq Olimpiya Komitəsi tərəfindən isə qadağan olunmuş maddələr və üsullar 5 əsas qrupa bölünür (3):

1. Stimulyatorlar (Amfetamin, efedrin və s.)
2. Narkotik Analjeziklər (Morfin, eroin və s.)
3. Anabolik maddələr (Testosteron və s.)
4. Diuretiklər (Furosemid və s.)
5. Peptid hormonları (eritropoetin, inkişaf hormonu və s.)

Bunların içində ən çox istifadə edilən dopinq maddələri Stimulyatorlar" (Amfetamin, efedrin və s.) "Peptid hormonları" (eritropoetin, inkişaf hormonu və s.) Anabolik maddələr" aiddir.

*Stimulyatorlar və onların əks təsirləri*

Stimulyatorlar mərkəzi sinir sisteminə birbaşa təsir ilə stimullaşdıran maddələrdir. Bu maddə metabolizma dərəcəsi, beyin, onurğa beyni və ürək üzərində stimullaşdırıcı təsir göstərir. Efedrin, psevdoefedrin, fenilpropanolamin kimi maddələr, stimulyatorların təsnifatına daxil olan maddələrə qrip dərmanlarında da rast gəlinir. Yan təsirləri dozadan, istifadə müddətindən və tezliyindən asılıdır. Bununla belə yan təsirlər aşağı dozalarda da görülə bilər. Lakin, mənfi təsirlər yüksək dozalarda daha çox özünü göstərir. Dopinqin istifadəsiylə ürəyin və digər həyati əhəmiyyət daşıyan orqanların fəaliyyət nizamı pozula bilər. Uzun müddət və isti tempratur altında - ağır şərtlərdə idman edərkən həblərin (toz, maye) yan təsirlər daha da artır. Uzunmüddətli istifadədə eyni təsiri əldə etmək üçün dozanı artırmaq lazımdır. Çünki zamanla bu cür maddələrə qarşı tolerantlıq yaranır.

*Peptid hormonları*

Peptid hormonları təbii hormonlardır və digər hormonların bədənə yayılmasına nəzarət edir. Dopinqin inkişafı artıran, əzələləri böyüdən və ağrıları azaldan təsirləri vardır. Bu maddə əsasən sintetik maddə kimi tanınır. Digərlərinə nisbətən zərərləri az olsa da təbii ki, bu maddə də süni şəkildə əzələ böyüdücü kimi tanınır və hormonların pozulmasına gətirib çıxarır. Bu hormonlar hər zaman qadağan edilmiş maddələr və üsullar qrupuna daxildir. İstər yarış müddətində istərsə də, yarışdan kənar müddətdə istifadəsinə yol verilmir.

*Anabolik steroidləri*

Anabolik-androgenik steroidlər, idmançılar tərəfindən ən çox istifadə edilən dopinq maddələri arasındadır. Maddə güc və bəzi idmanlarda əzələ gücünü və əzələ kütləsini artırmaq üçün istifadə olunur. Yarışmadan qısa müddət əvvəl digər dopinq maddələri istifadə edilərkən, anabolik steroidlərin təsirli olması üçün bir neçə ay əvvəl və normal müalicə dozalarından 10 dəfə çox dozalarda istifadə edilməlidir. Atletik performansı artırmaq üçün yüksək dozalarda və uzun müddətli anabolik steroid istifadə etmək lazımdır. Anabolik steroidlər bədənin demək olar ki, bütün orqanlarında yan təsirlərə səbəb ola bilər. Anabolik maddələr normal hormon funksiyasına təsir göstərir. Anabolik steroidlər qaraciyər xəstəliyi riskini, qan təzyiqini, yüksək sıxlıqlı lipidlərin səviyyəsini artırır və ürək-damar xəstəlikləri riskinə səbəb olur. Bundan əlavə qadınlarda sümük əriməsi xəstəliyi, səsin qalınlaşması, depressiya və s. gətirib çıxara bilir. Bu təsirlərə əlavə olaraq dopinqin psixoloji təsirləri də var.

Xaricdə aparılan araşdırma və sorğuların nəticələrini araşdırarkən bu qənaətə gəlmək olar ki, idmançıların 79,5%-i stimulyatorlardan daha çox istifadə edir. İdmançıların təxminən üçdə ikisi dopinqi idmançılar, məşqçilər və inzibatçılar tərəfindən yaxşı tanıdığını (64.4%), bu barədə məlumatlı olduqlarını (şəxsi təcrübə) (64.6%) və dopinqlə bağlı nəşrlər oxuduqlarını (65.8%) bildirirlər. Ümumiyyətlə, xarici ölkələrdə bir çox idmançı, aralarında qadağan edilmiş bir maddə olduğunu bilmədən qəbul etdikləri dərmanlara görə cəzalandırılırlar. Buna görə də, dərmanı istifadə etməzdən əvvəl dərmanın qadağan edilmiş maddələr siyahısında olub - olmaması mütləq şəkildə yoxlanmalıdır (11).

BOK tərəfindən qeydə alınan və idmançılar tərəfindən istifadəsi məhdudlaşdırılan digər maddələr 5 əsas qrupa bölünür:

- Alkaqol;
- Kortikosteroidlər
- Beta-blokerlər
- Esrar
- Lokal anestezik

Lakin, idmançının hər hansı bir xəstəliyi varsa və bu xəstəliklə bağlı müəyyən dərmanları qəbul etmək məcburiyyətindədirlərsə, idmançıya təcili təxirəsalınmaz müdaxilə tələb edilərsə (qəza, təcili cərrahi müdaxilə və s.) o, Terapevtik İstifadə üçün istisna Komitəsinə müraciət edə bilər. Əgər qadağan edilmiş dopinq maddələri və üsulları, Terapevtik İstifadə üçün İstisnalar (TİI) üzrə Beynəlxalq Standarta uyğun olaraq verilmiş TİI müddəalarına uyğundurlarsa, onlar antidopinq qayda pozuntusu hesab edilmirlər. İdmançı istənilən dərman və ya qida əlavəsinin qəbulundan öncə aid olduğu idman federasiyasının həkimi ilə məsləhətləşməlidir. Terepavtik istifadə üçün istisna Komitəsinə müraciətin edilmə forması Antidopinq Məcəlləsində idmançıların kateqoriyalarına uyğun olaraq-beynəlxalq səviyyəli idmançılar, milli səviyyəli idmançılar və 1 yanvar 2021-ci il tarixində qüvvəyə minən dəyişikliyə əsasən digər idmançılar kateqoriyası şəkildə göstərilmişdir. Beynəlxalq səviyyəli idmançılar öz idman növü üzrə Beynəlxalq Federasiyasının Terapevik istifadə üçün istisna Komitəsinə (TİİK), Milli səviyyəli idmançılar Milli Antidopinq Təşkilatının TİİK-nə və Əsas Tədbir Təşkilatçısının TİİK-nə müraciət etməlidirlər. Yeni edilən dəyişikliyə əsasən digər idmançılar (milli və beynəlxalq səviyyədə olmayan idmançılar) Milli Antidopinq Təşkilatının TİİK-nə müraciət etməlidirlər (2).

## Dopinq nəzarətinin həyata keçirilməsi

Ölkəmizdə dopinq nəzarətinin aparılma qaydası Azərbaycan Milli Antidopinq Agentliyi tərəfindən müəyyən olunmuş qaydada həyata keçirilir. Bu proses 2 cür keçirilir: yarışmadan kənar müddətdə test keçirmə və yarışma müddətində test keçirmə. Yarışmadan kənar müddətdə keçiriləcək test haqqında əvvəlcədən məlumat verilmədən,istənilən zaman və istənilən yerdə həyata keçirilir. Əsasən, komandalar məşq sessiyaları dövründə testdən keçirilir. Əgər zərurət olarsa evləri daxil olmaqla, digər yerlərdə testdən keçirilə bilərlər. Yarışma müddətində keçirilən test isə idman tədbirləri zamanı keçirilir. Yarış müddəti yarışdan bilavasitə əvvəlki gün saat 23:59-dan etibarən başlayan və yarışmanın bitdiyi ana qədər nəzərdə tutulan zaman kəsiyi hesab edilir. Bu anlayış 1 yanvar 2021-ci il tarixində qüvvəyə minmiş Məcəllədə qeyd edilmişdir. Bu müddətə həmçinin, Dopinq Nəzarəti Prosesinin başa çatdığı dövrdə daxil edilir. Burada seçim təsadüfi və ya hər hansı səbəbdən irəli gələn məqsədli ola bilər. Yarışmada iştirak etməmiş idmançılar, məsələn, ehtiyat oyunçular yaxud yarışmalara cəlb olunmayanlar da dopinq nəzarətindən keçirilə bilərlər. AMADA ÜADA-nın Test Keçirmə və Təhqiqatlar üzrə Beynəlxalq Standartına müvafiq olaraq Milli Test Proqramını idarə edir. Milli Test Proqramı üzrə qan testi keçirilir. Test yarışma müddətində yaxud yarışmadan kənar müddətdə keçirilə bilər (4).

Dopinq nəzarətinin həyata keçirilməsi üçün idmançıdan qan nümunələri götürülür daha sonra laboratoriyada qan tərkibinin standartlara uyğun olmadığını yoxlayır. İdmançılardan toplanan qan nümunələrinin daşınması və ya saxlanması zamanı Temperatur Nəzarəti Cihazının (Q-tag) nömrəsi Dopinq Nəzarəti Formasında qeyd edilir. İdmançı qan nümünəsinin götürülməsindən boyun qaçırdıqda, oyundan kənarlaşdırılır. İdmançı və dopinq nəzarəti zamanı onu müşayiət edən digər işçilər (məşqçi, menecer, həkim və s.) dopinq nümunə standartlarını da bilməli və bu barədə idmançını müntəzəm olaraq məlumatlandırmalıdırlar.

Qlobal antidopinqə nəzarətinin aparılması Ümumdünya Antidopinq Agentliyi (ÜADA) tərəfindən və Ümumdünya Antidopinq Məcəlləsi üzrə Beynəlxalq Standarta əsasən monitorinq edilir. ÜADA-nın qlobal tənzimləyici qurum kimi əsas rolu bütün idman növləri və ölkələr üzrə antidopinq qaydalarını və siyasətlərini hazırlamaq, uyğunlaşdırmaq və əlaqələndirmək, Məcəllə və ona bağlı Beynəlxalq Standartların effektiv icrasını təminini və monitorinqini etməkdir. Əlavə olaraq, ölkələrin beynəlxlaq öhdəlikləri ilə əlaqədar "İdmanda dopinqə qarşı mübarizə haqqında" Beynəlxalq Konvensiyasına riayət YUNESKO-nun Monitorinq Qrupu tərəfindən müntəzəm monitorinq edilir.

Dopinq Nəzarətləri Milli və Beynəlxalq Antidopinq Təşkilatları tərəfindən təşkil edilərək idarə olunur. Dünyada antidopinq nəzarəti Ümumdünya Antidopinq Agentliyi (WADA) tərəfindən müəyyən edilmiş qaydalaraa əsaslanır. Milli və Beynəlxalq Antidopinq Təşkilatları qəbul edilmiş beynəlxalq standartlara uyğun

dopinq nəzarətini həyata keçirməlidirlər. Bu standartlar Dünya Antidopinq Agentliyi və ya Beynəlxalq İdman Federasiyaları tərəfindən yayımlanır.

Standartlara zidd bir əməliyyat olması halında, idmançı və ya onu müşayiət edən məmur dopinq nəzarəti prosesinə etiraz etmək səlahiyyətinə malikdir. Müraciət səlahiyyətli Milli və Beynəlxalq Antidopinq Təşkilatları tərəfindən qiymətləndirilir və lazımi tədbirlər qısa zamanda görülür.

Rəsmi şəxs idmançıdan son on gün ərzində resept və ya reseptsiz dərman, əlavələr və ya digər maddə qəbul edib-etmədiyini soruşur. İdmançının bu suala verdiyi cavablar Dopinq İdarəetmə Formunda qeyd olunur.

Dopinq İdarəetmə Formundakı məlumatlar idmançı və onun nümayəndəsi tərəfindən idarə olunur. İdmançı bütün məlumatların düzgün olduğundan əmin olduqdan sonra formu imzalayır. Formu imzalamaq idmançının formdakı məlumatların doğru olduğunu və dopinq nəzarəti protokolunun qaydalara uyğun olduğunu bildirməsi deməkdir. İdmançı əməliyyatların qaydalara uyğunluğundan şübhələnirsə, bu barədə düşüncələrini formda yaza bilər.

## Nəticə

Nəticədə, idmançılar arasında ən çox görülən dopinq növləri stimulyatorlar və anabolik-androgenik steroidlərin olduğu qənaətinə gəldik. Əlavə olaraq, idman sahəsində idmançıların sponsorları və ya onları təmsil edən hüquqşünaslar arasında elə şəxslər var ki, bu barədə elə də çox məlumatlı deyil yaxud əks təsirləri bildikləri halda buna o qədər də əhəmiyyət vermirlər. Bu səbəbdən də, idmançıların yaxud digər bu kimi maddələrdən istifadə edən şəxslərin bu mövzuda daha diqqətli olmaları mütləqdir. Bütün bunlarla yanaşı dövlətin bu cür dopinq məhsullarına qarşı mübarizə təşkilatlarına dəstək göstərməsi, universitetlərdə və məktəblərdə şagirdlərə və tələbələr bu barədə ətraflı məlumat verilməsi, dopinqin zərələri haqqında tədbirlərin aparılması olduca vacibdir. Bu zaman təkcə dopinqin sağlamlığa vurduğu zərər deyil, dopinqin idman ruhuna vurduğu zərərlər geniş şəkildə idmançılara,onların şəxsi heyətlərinə və komandalara çatdırılmalı və idmançıların təmiz idmanda iştirak etmək hüququ təmin edilməlidir. Buna görə də, müasir dövrdə gənclər habelə idmanla məşqul olan şəxslərə bu maddələrin zərərləri haqqında ətraflı məlumat verilməli, sosial şəbəklərdə dopinqdən istifadə etmənin zərərləri göstərilməli, dopinqin istifadəsinin təkcə oyunun qaydalarına deyil, həmçinin şəxsin sağlamlığına törədəcəyi ciddi fəsadlar geniş şəkildə göstərilməlidir.

## References

1. International Convention against Doping in Sport
2. World Anti-Doping Code
3. Anti-Doping Rules of the International Olympic Committee
4. Law of the Republic of Azerbaijan dated November 29, 2016 “On combating the use of doping substances and methods in sports”
5. Azerbaijan National Anti-Doping Rules
6. Law of the Republic of Azerbaijan “On Physical Culture and Sports” dated June 20, 2009
7. AMADA Collection of “Basic Anti-Doping Concepts”
8. Ashcroft R.E, Dawson A., Draper H. & Mcmillan J.R. (2007). Eds. Ethics of performance enhancement in sports: drugs and gene doping. 2nd ed. New York: John Wiley & Sons Ltd. p. 511-519
9. Dincher N. Determining the knowledge level of elite athletes about doping. Seljuk University, Institute of Health Sciences, Master's thesis, 138, Konya, (Assist. Prof. Hayri Demir). 344 p
10. Eroz, M.F. Determining the Opinions and Knowledge Levels of Athletes Performing Athletics, Wrestling, Judo and Weightlifting on Doping and Ergogenic Assistance at the National Level. Institute of Social Sciences, Master's thesis, 244 pages, Kutahya, (Assist. Prof. Chetin Ozdilek). 211 p
11. Genchturk G., Cholakoglu T, & Demirel M. A study to measure doping knowledge in elite athletes (wrestling example). Nigde University Journal of Physical Education and Sport Sciences; 3: 222 p.
12. Ishık S. Investigation of Doping Use Tendency and Level of Knowledge in Developing Basketball Players. Çanakkale Onsekiz Mart University, Institute of Health Sciences, Master's thesis, 127 pages, Chanakkale, (Assist. Assoc. Dr. Ozhan Bavlı). 211 p.
13. Karakoch, E. Investigation of the frequency of using drugs containing doping by students of Cumhuriyet University Physical Education and Sports High School, Jumhuriyet University, Institute of Health Sciences, Master's thesis, 52 p.

**Rəyçi: m. F.Haqverdiyev**

Göndərilib: 25.03.2021 Qəbul edilib: 26.03.2021